www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# Professor Akif Musayev vəfat edib

Azərbaycan elminə ağır itki üz verib.

Professor, AMEA-nın müxbir üzvü və görkəmli iqtisadçı Akif Musayev vəfat edib.

Akif Musayev 1947-ci il 18 iyulunda Füzuli rayonunda anadan olub. O, 2007 - 2011-ci illərdə Azərbaycan Universitetinin rektoru, 2011-2013 -cü illərdə Vergilər Nazirliyinin Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, 2013-2016 -cı illərdə Vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri, 2016- cı ildən AMEA-nın İqtisadiyyat İnstitutunun "İqtisadi tədqiqatların riyazi təminatı" şöbəsinin müdiri vəzifələrində işləyib.

Eyni zamanda, alim, AMEA-nın İqtisadiyyat İnstitutu Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri vəzifəsində çalışıb.

Görkəmli iqtisadçı həmçinin, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupunun və məcburi köçkün əhalisinin Qarabağa məskunlaşdırılması ilə bağlı aparılan tədqiqat işinin yerinə yetirilməsi ilə bağlı ADA Universitetinin nəzdində yaradılmış qrupun üzvü olub.

A. Musayev 1976-1980-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda baş elmi işçi vəzifəsində, 1980-1984-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunun "Tətbiqi riyaziyyat"



kafedrasında baş müəllim, 1984-1991-ci illərdə dosent vəzifələrində çalışıb.

Akif Musayev 1999-cu ildən elmi-pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı respublikanın vergi sistemində məsul rəhbər ictimai-inzibati vəzifələrdə çalışıb, 2007-2011-ci illərdə Azərbaycan Universitetinin rektoru kimi çox böyük təşkilati elmi işləri həyata keçirib, 2002-2007-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində onun təşəbbüsü ilə yaradılmış Məhsuldar tədqiqatçı-alim və mahir pedaqoq kimi Azərbaycanda vergilər sahəsində elmi məktəbin əsasını qoyub. Onun elmi işləri Azərbaycanın vergi sisteminin elmi əsaslarının işlənib hazırlanması, tədrisi, onun dünya təcrübəsinə uyğunlaşdırılması sahəsində çevik maliyyə və vergi siyasətinə əsaslanan iqtisadiyyatın idarəolunan ekoloji modelinin yaradılmasına və bu problemlərin həllində iqtisadi-riyazi üsul və modellərin tətbiqinə mühüm töhfə olub.

AMEA-nın müxbir üzvü, professor A.Musayev ümumilikdə 500-dən çox elmi əsərin, o cümlədən, 10 monoqrafiyanın, 25 dərslik və dərs vəsaitinin, 12 fənn proqramının, 150 elmi məqalənin, 300-dən çox broşura, metodik göstəriş, elmi-populyar məqalənin, məruzənin və s. müəllifi olub. Əsərləri xarici ölkələrdə, o cümlədən, Almaniyada, Rusiyada, İranda, Macarıstanda, İtaliyada, Latviyada, ABŞ-da və digər ölkələrdə çap olunmuş, bir çox beynəlxalq konfrans və simpoziumlarda dinlənilib.

Professor A.Musayevin iqtisadi kibernetika, qiymətli kağızlar bazarı, iqtisadi proqnozlaşdırmanın nəzəri məsələləri, vergi sisteminin inkişafı, ekonometrik üsullardan istifadə etməklə, vergi daxilolmalarının proqnozlaşdırması, proqnozlaşdırmanın metodologiyasının hazırlanması, vergi siyasətinin səmərəliliyinin müəyyən edilməsində vergi yükünün rolu, iqtisadi inkişafda xəlvəti iqtisadiyyat problemi, vergi idarəçiliyi və onun təkmilləşdirilməsi, vergi islahatlarının investisiyaların cəlb olunmasına təsiri kimi elmi-tədqiqat işləri iqtisadiyyatda bir çox müasir problemlərin həllinə kömək edib.

Allah rəhmət eləsin!